**Cəmil, Adil**. Vətən savaşı kəlbəcərlilərin də yurd həsrətinə son qoydu / A. Cəmil // Xalq qəzeti. - 2020. - 20 noyabr. - **№ 242**. - S. 5.

***30 illik ağrılarımızın içində ümid, inam libasında bir deyim hər an boy göstərdi: "Dünya belə qalmaz!". Müdriklərdən qalma bir deyim də yadıma düşdü: "İnsan ata-anadan birini itirərsə – ömrünün yarısı, inamını itirərsə – hər şeyi əldən gedər". Bizi məhz illərlə itirmədiyimiz o inam yaşatdı. Kəlbəcərdə doğulub, 28 il ata yurduna həsrət qalanları da məhz haqqın basılmazlığı inamı bugünkü sevincli günlərə qovuşdurdu.***

Sentyabrın 27-dən başlayan 44 günlük Qarabağ savaşının zəfər yürüşünü, sanki, şirin bir röyada görürəm. "Mümkün olmayanı mümkün edən qalib Prezidentimiz, qüdrətli Ali Baş Komandanımız İlham Əliyevin, torpaqlarımızın erməni murdarlarından təmizlənməsində qanlı döyüşlərə alp-ərənlər kimi atılan əsgər və zabitlərimizin rəşadəti önündə hədsiz minnətdarlıq və sonsuz ehtiramla baş əyirəm. Azərbaycan 44 günlük müharibədə 30 ilə yaxın müddətdə işğal olunmuş torpaqlarını özünə qaytarmaqla özünün qəhrəmanlıq, dünyanın hərb tarixinə qızıl hərflərlə yeni səhifələr yazdı. İndi bütün dünyanın superdövlətləri belə Azərbaycanın böyük qələbəsindən, bütün müstəvilərdə məharət və qətiyyətlə döyüşən Ali Baş Komandanından, müzəffər ordusundan, savaş günü yumruq kimi birləşən xalqından hörmət və həsədlə danışır. Doğrudan da, nə qədər qürurverici günlər yaşayırıq! Bir Kəlbəcər övladı kimi mən də ömrümün yarısını, sanki, yaşamamışam. Yaşadığıma yaşamaq demək olsaydı, vaxtilə belə yazmazdım:

***Torpağım silindi el yaddaşından,***
***Saxlancım qalmadı çopur daşından.***
***O qarlı-qartallı dağlar başından***
***Elə ki, başladı köç-- yaşamadım.***

Bu illər ərzində mən də yurd yerimi dərd yerimə çevirmişəm. Atam, anam, əmim, dayım, bir çox doğmalarım bu dərdlə dünyadan köçdülər...

1988-ci ilin fevral ayında Qarabağ dağlarında xain ermənilərin haqsız qovğası başladı. Kəlbəcərin Ağdərədən keçən dədə-baba yolu bağlandı. Saqqallı ermənilər daşın, ağacın dalında gizlənib bu yoldan keçən kəlbəcərlilərə atəş açmağa başladılar. Bu yolda nə qədər itkilərimiz oldu. Dədə Şəmşirin qızı Çimnaz xanım, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş Şahlar Şükürov da bu qanlı yolda həlak oldular

Kəlbəcərlilər 5 il – 1988--1993-cü illərdə mühasirə vəziyyətində yaşadılar. Yeganə ümid Yevlax şəhərindən Kəlbəcərə açılan hava yolundakı 18 nəfər tutan 1 vertolyota idi ki, o da duman olanda uçuşunu təxirə salırdı. Binəva yurddaşlarım günlərlə Yevlağın küçələrində var-gəl etməli olurdular. Başqa bir yol da Murov-- Göygöl yolu idi ki, bu ensiz dağ keçidi çox qorxulu-qəzalı idi.

1989-cu ilin payızında Yevlaxdan vertolyotla Kəlbəcərə gedəndə gördüklərim məni dəhşətə gətirmişdi. Rayonda təkcə elektrik enerjisi yox, həyat sönmüşdü. Ciddi ərzaq qıtlığı vardı. Sabaha ümid qalmamışdı. O zaman gördüklərimi qeydə alıb qayıdanda "Yolları bağlı dağlar" adlı məqaləmi yeni nəşrə başlamış Sabir Rüstəmxanlının baş redaktoru olduğu "Azərbaycan" qəzetində dərc etdirmişdim. Həmin yazıdan bir hissəni xatırladıram: "Kəlbəcər ərazi etibarı ilə Ermənistana ən yaxın, Azərbaycana isə ən uzaq rayondur. İndiki vəziyyətdə o, sərhəd boyunda qala qapısına bənzəyir. Bu qapını unutmaq, onun daha da möhkəmləndirilməsi qayğısına qalmamaq ağır nəticələrə, dözülməz fəlakətlərə səbəb ola bilər".

Dərhal mənə o zamankı ölkə rəhbərliyindən ittihamedici zənglər gəldi. Guya, yazdıqlarım yalan imiş. Həyat göstərdi ki, yazılanlar, baş verə biləcək fəlakətlərin proqnozu doğru imiş.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə müdhiş Xocalı soyqırımı baş verdi. Üstündən 1 ay keçər-keçməz-- aprelin 5-də Kəlbəcərin Ağdaban və Çayqovuşan kəndləri erməni faşistlərinin vandalizminə qurban getdi. Ermənilər 33 nəfər kənd sakinini ağlagəlməz işgəncələrlə qətlə yetirdilər, bir neçə yurddaşımızı girov götürdülər. Bu qırğın amansızlığına görə Xocalı qətliamının davamı idi. Lakin bu faciə dünyaya yayılandan sonra o zamankı müdafiə naziri Rəhim Qazıyev bundan xəbərsiz olduğunu söyləmişdi.

Xatırladıram ki, Ağdaban saz-söz sənətinin korifeylərindən olan Dədə Şəmşirin doğma kəndi, qətlə yetirilənlər isə qohum-əqrəbası idi. Ustadın öz əlləri ilə tikdiyi ev və bu evin içində tutiya kimi qorunub saxlanan Ağdabanlı Qurban və Aşıq Şəmşir poetik irsini yaşadan əlyazmalar da odlara qalanmışdı.

Bir il sonra-- 1993-cü il aprelin 2-də isə təklənmiş, 5 il mühasirədə qalmış Kəlbəcər erməni işğalına məruz qaldı. Kəlbəcər 5 il mühasirədə ölüm-dirimlə yaşadı, ancaq heç kəs yurdunu tərk etmədi. Xalqın bu iradəsinin müqabilində o zamankı hakimiyyət strukturları yurddaşlarıma nə hərbi, nə iqtisadi, nə də mənəvi kömək göstərdilər. Beş il ərzində Kəlbəcəri özünümüdafiə dəstələri qorudu, rayon çoxsaylı şəhidlər verdi. Əsir və girov düşənlərdən hələ də xəbər-ətər yoxdur, ya da erməni zirzəmilərində çürüyürlər. Erməniyə əsir düşməmək üçün əl-ələ tutub özlərini hündür bir qayadan atan qızlarımızın Tərtər çayına qarışan qanı namusumuzu yudu:

***O qızlar Tərtərin göz yaşı oldu,***
***Tarixin pozulmaz yaddaşı oldu.***
***Göydələn zirvələr başdaşı oldu***
***Özünü qayadan atan qızlara.***

Ev-eşikləri erməni atəşində külə çevrilən kəlbəcərlilər yurd yerlərini tərk etmək məcburiyyətində qaldılar. Xilas olmağın yeganə yolu qarlı aşırımlardan keçən Murov yolu oldu. Bütün fəsillərdə qarlı-buzlu Murovun dəli təbiəti də bu el köçünə rəhm etmədi. Bu dağ yolunu aşıb Göygöl rayonuna gələn karvanda soyuqdan, qəzadan ölənlərimiz də az olmadı, yük maşınının üstündə gələn, şaxtadan sifəti cadar-cadar olmuş anamı görəndə tanımamışdım...

Bu faciədən sonra kəlbəcərlilər illərlə özlərinə gələ bilmədilər. El-oba dağılıb ölkənin 400-dən artıq yaşayış məntəqəsinə səpələndi. Harada, necə gəldi yaşadılar. Ancaq onları yaşadan bir ümid, bir inam heç zaman ölmədi. Bu günləri görən nisgilli yurddaşlarımın indi ürəyi atlanır ki, tezliklə doğma Kəlbəcərimizə qayıtsın. Torpaqlarımız işğaldan azad olunduqca Prezidentimizə, ordumuza bu xalqın sayı qədər dualar, alqışlar, təşəkkürlər ünvanlanır.

Savaş günlərində Ali Baş Komandanımızın dilindən hər gün yeni yaşayış məntəqələrinin, şəhər və kəndlərimizin alınması xəbərini eşitdikcə sanki yenidən doğulurduq. Belə məqamlarda düşünürdüm ki, Kəlbəcərin alınması xəbərini qəfil eşitsəm necə, hansı ovqatda olaram:

***Mənə bu xəbəri qəfil deməyin--***
***Axan göz yaşıma gülə bilərəm.***
***Dərd-qəmin içində çox ölmüşəm mən,***
***İndi də sevincdən ölə bilərəm.***
***Mənə bu xəbəri qəfil deməyin,***
***Qəmin də karvanı ötən olurmuş...***
***Vətən savaşında, yurd davasında***
***Hər insan bir zərrə vətən olurmuş...***

Gözün aydın, Azərbaycan! Murdarların ləpirindən təmizlənən Kəlbəcər kimi ala yaylaqlarımıza alaçıqlar qurmağa, evlər tikməyə elliklə qayıdacağımız gün yetişdi. Vətən savaşı kəlbəcərlilərin də yurd həsrətinə son qoydu. Düşməni məğlub edən ölkəsini matəmgaha çevirən, sevincli göz yaşları içərisində 1 milyonadək köçkünü qədim yurd yerlərimizə səsləyən bu böyük Qələbə Tanrının mərhəməti, Prezidentimizin qeyrəti, Ordumuzun rəşadəti, Xalqımızın birliyi ilə mümkün oldu. “Dünya belə qalmaz” – demişdik, qalmadı da!

***Adil CƏMİL, şair-publisist***